

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# XİLAS YOLU

## Gözəlliyin özü də sevgidi

**Həyat bir göz qırpımı olmaqla yanaşı, həm də uzun, lap uzun bir yoldu. Bunu elə-belə demirəm. Çünki uşaqlıq xatirələrimə baş vuranda o yolun uzunluğu gəlib dayanır gözümün qarşısında. Yəqin sizdə də olur belə hallar. Axı biz uşaq yaşımızda olanda özümüzdən böyüklərə zaman baxımından heyrətlə baxırdıq. Fikirləşirdik ki, filankəs 80-85 il yaşayıb və yaşamaqda da davam edir. Bu qədər də qaşamaq olar? İndi özüm 60-ın sərhəddini keçmişəm.. Və düşünürəm ki, pah attonan... Əsrin yarısının kürəyini yerə vurmuşam. Zarafat deyil, bir anın ömür olduğunu, bir ilin ömür sayıldığını təsəvvür edəndə 60-ın qarşısında heyrətlənməmək mümkün deyil...**

Doğrudur, ömrü yazan da, verən də Tanrıdı. Ona ömür adlı kitabına kimsə əl uzada bilməz. Bu kitab elə möhürlənib, surquclanıb ki, onu yalnız Tanrı özü aça bilir. Açılanda da bir ömür bitir. Təbii ki, cismani mənada. Və...

Elə bu günlərin söhbətidir. Dəyərli dizaynerimiz Şamxalla gecə növbəsindən evə gedirdik. Söhbət həyatdan, ömürdən düşdü. Buna da səbəb yolda gördüyümüz qəza oldu. Gənc dostum qırılan ömür üçün təəssüfləndi. Amma sonra da məni biləndərlik hesab edib dedi ki, müəllim, yəqin dünyasını dəyişən ömrünün davamını o tərəfdə yaşayacaq. Açığını deyim ki, onun zarafat etdiyini düşündüm. Sonra gördüm yox, fikrində ciddidi. Qəlbinə dəymədim. Yavaşca dedim ki, o tərəfdən nə məktub almışam, nə də mesaj. Və orda kimin yaşadığını və ömrünü davam etdirdiyini də bilmirəm. Ümumiyyətlə, Allah heç kimə demir, heç hiss də etdimir ki, ona nə qədər ömür verib. Və bu ömrün davamını da axirətdə yaşayacaq. Əgər insan belə bir bilgiyə malik olsa, ən kiçik çətinlikdə özünə ölümü seçər, axirətin rahatlığı üçün ordakı xoş günlər naminə. Təbii ki, bu mənim öz düşüncəmdi. Bunu mən nə müqəddəs kitabımıza, nə də din xadimlərimizə istinad edib demirəm. Öz məntiqimlə belə düşünürəm. Və bir də içimdəki duyğular mənimlə bir ömürdü ki, sirdaşlıq edən sevgi bu qənaəti yaradıbdı. Lap çılpaq desəm, sevgidən doğulubdu bu inam, bu fikir. Çünki mən Allahın Yer üzünü də, bəndələri də, bütün canlı-cansız təbiəti də məhz sevgidən yaratdığına birmənalı inanıram. Nəhayət, mən sevgisiz həyat təsəvvür etmirəm. Ona görə də hər zaman o sevginin özünə sığınıb duyğularımı misralara çevirirəm. Yazıram ki:

**Alovlanır içimdə
Yandırdığın ocaq, şam...
Sənə doğru qaçıram -
Havalı tək, ay adam...**

**Bir səmt göstər, yönəlib
Durum orda bir hovur...
Səbrim daşa dirənib -
Məni içimdən qovur...**

**Söz də çatmır hayıma
Tikanlayıbdı qələm...
Dərd avansdı payıma -
Ödədiyimsə sələm...**

**Bu ocağı, bu şamı
Bir dam altına götür...
Sən ay Tanrı adamı,
Məni dərgaha ötür...**

Hə, bu şeirin ovqatı bəlkə də könlünüzcə olmadı. Lakin mən bu şeiri də sevgiylə yazmışam, həm də sevdiyimə yazmışam. Bilmirəm, o necə qarşılayıb. Sadəcə olaraq, şeiri qəlbimə toxum kimi səpən Tanrı, mənə bu ilhamı, bu şövqü bağışlayıb, məni yönəldib. Və mən də o söz çəmənindən ruhumun pıçıltılarına uyğun seçim etmişəm. Nəticədə də can atdığım sevgi bütün sevgilərin zirvəsi olur. Axı o zirvədə dayanan bəndə də Tanrı sevgisindən yaranıb və mən də məhz onunla təmas qurub Tanrıma qovuşmağa çalışıram!..

***

Yaşadığım zamanın bütün ovqatı tarıma çəkilib. Baş verən hadisələr istər siyasi, istər təbii proseslər dünya coğrafiyasının özündəki təlatümlər bu və ya digər şəkildə bizə də təsir göstərir, səndən də, məndən də yan keçmir. Ona görə də sıxıntı və streslər azalmaq yox, artmaq yolunu tutub. Onun ölçü vahidi, dərəcəsi yüksəlməkdədir. Bax, belə bir durum da dayanıqlı olmaq, büdrəməmək, ən azından olduğun kimi qalmaq özü bir qəhrəmanlıqdı. Düzdü, bəzən bir qəhrəmanlıq anlayışını da min yerə yozuruq, onun da damarına nəyisə qatmağa, onun da başında turp əkməyə çalışırıq. Amma mənim inamıma görə, olduğun kimi olmaq, olduğun kimi qalmaq və bunu da həyat kredona çevirmək özü bir qəhrəmanlıq simvoludu, obrazıdı. Bu həm də dəyişməzlikdi, bütövlükdü. Təbii ki, bunun içərisində ən böyük hakim inanc, əqidə və bir də qətiyyət dayanır. Əsən küləyin, qopan tufanın, edilən basqıların həmin saydığım şərtlərə, nüanslara heç bir təsiri olmur. Bax, bu da mənim inandığım qəhrəmanlığın özü deməkdir!..

Dediklərimin mahiyyətinə varanda qarşıya bir neçə sual çıxır. Onlardan ən birincisi zamanla anlaşmaq, yoxsa ona qarşı çıxmaqdı. Bu sual ətrafında günlərlə müzakirə açmaq olar. Çünki hər kəsin öz baxış bucağı, öz fikri, öz məntiqi var. Və deməli, hər kəs də öz fərdi fikriylə ortada olacaq. Bu fikir də ya zamana qarşı çıxacaq, ya da zamanla anlaşacaq. Özü də fikir sahibinin məntiqiylə, yanaşma üslubuyla. Mən isə öz mütaliələrimə, əldə etdiyim informasiyalara və bir də mühakimə qabiliyyətimə görə bu qənaətdəyəm ki, selə qarşı üzmək hardasa bir dəlilikdi. Amma selin səmtini dəyişməyə cəhd göstərmək bu, yumuşaq desəm, fədakarlıqdı. Yəni bir damcı ilə odu söndürmək cəhdi də qəbul olunandı. Bütün imkanlardan istifadə edib yanğının əhatəsini daraltmaq, onu söndürmək də. Yəqin ki, söylədiyim bu fikirlərdən siz də nə demək istədiyimi duydunuz. Hiss etdiniz ki, mən zamana qarşı yox, zamana müsbət çalarlar qatmaq yoluna meylliyəm. İstəyirəm ki, böyük şairlərin dediyi kimi, zamana da, dünyaya da hakim yalnız sevgi olsun. Göz yaşları yaşadan, həsrəti dilimizin qabarına, ürəyimizin ağrısına çevrilən, vüsalı gecikdirib hicranı şərəfləndirən sevgiyə. Məhz bu sevgi dünyanı xilas edəcək, zamanı insanların istəyinə uyğunlaşdıracaq. Onda da mən yenə üzümü sənə tutub deyəcəm:

**Ürək şüşə, göz də yaş
Çətin yanır közdə, yaş...
Dilindəki söz də daş -
Dillənib at üstünə!**

**Ümid çınqı, ah dəniz
Düşər, yanar, gah dəniz...
Dərdə hakim şah dəniz -
İlğım tək yat üstümə...**

**Əl soyuq, yeriş ağır
Baxışım bulud sağır...
Gör necə sakit baxır -
Qoyub hər ad üstümə...**

**Baxın, amma keçməyin
Sahibiyəm heç nəyin...
Mənə sevinc seçməyin -
Düşəcək çat üstümə...**

**Hələ kiprik silirəm
Arsız-arsız gülürəm...
Qabaracaq bilirəm -
Bir gün həyat üstümə!..**

Bax, budur mənim yaşadığımın bir mənzərəsi, bir anı. Bu yaşananın içərisində zaman da var, gileyini etdiyim həyat da. Amma burda ən önəmlisi odur ki, yaşanan və yaşadan Sevgidi! Bunu unutmadığım, xəyalımdan, yuxumdan uzaq salmadığım üçün onunla bir-birimə söykənib həyatın da, zamanın da bir hissəsinə çevrilmişik. Təbii ki, bizə görə bu, müsbət bir hissəcikdir. Sizə görə isə?.. Bu cavab sizə aiddir. Mən isə elə ovqatın bu məqamında yenə misralara, yenə şeirə üz tuturam. Bilirəm ki, orda səninlə birlikdəyəm, orda bir-birimizi daha yaxşı anlayıb, daha yaxşı dəyərləndiririk.

**Neynirsən nişan alıb
Necə atsan dəyəcək...
Ağlım gülləndə qalıb -
Dəyib, məni əyəcək!..**

**Boş ver qayğı yükünü -
Xurcun etmə çiyninə...
Daraqdakı tükünü -
Gətirmə, heç eyninə...**

**Ürəyinin odunu
Ruhuna havadar et...
Unut onun adını -
Görmə, lap üstündən get!..**

**Çırp daşa əsəb kimi
Yat, nə varsa içində...
Bitsin, qoy əzab kimi -
Həyat, mənim üçün də...**

**Neynirsən nişan alıb
At, əlində nə varsa...
Dəyəcək, təki qorxma -
Məni, sən qan aparsa!..**

***

Yazımın əvvəlində yaşamdan, ömürdən, həyatdan, zamandan söz açdım. Elə yazı boyu da düşündüklərimi bilgisayara diqtə edə-edə həyatın, zamanın elə bu yazının doğulma müddəti həcmində cizgilərini ifadə etməyə çalışdım. İstədim ki, hər şeyin özümüzə, öz sevgimizə bağlı olduğunu müxtəlif işarələrlə bir daha nəzər nöqtəsinə çıxarım. Və bir də istədim ki, dəyərli oxucularımın sevgi dünyasına bir mesaj ötürüm. Və onlara xatırladım ki, gözəllik də sevgidi. Ona görə deyiblər ki, dünyanı gözəllik xilas edəcək. Bax, bu inancla da yazı boyu içimdəki, varlığımdakı sevginin nazını çəkdim. Onu vəsf etməyə, onu layiq olduğu səviyyəyə köklədim özümü.

Bilmirəm, bu istəyim, bu niyyətim, sizi razı saldı, yoxsa yox. Amma içimdən gələn səslər, ruhumun pıçıltıları mənə dedi ki, hər kəsin urəyi tutumunda sevgisi var. Ona görə oxucu məndən inciyə bilməz. Axı mən onun sevgisini tərənnüm edirəm, onun sevgisinə dəyər verirəm. Demək istəyirəm ki, sevgidən başqa hər şey yalandı. Sevgi ölümsüzlüyün bir nişanəsi, bir göstəricisidi. Axı o, haqdan gəlir. Və elə "Ol!" sözü də, o hökmün səslənməsi də sevginin özü deməkdi!..

Bax, bu yerdə yenə sevgi döyür ürəyimin qapısını, ruhumun pəncərəsini. Ordan gələn səsdə isə bu misralar əks olunur.

**Bir kimsə bilmir ki, nə axtarıram
Yenə dolaşıram tək, küçələri...
Tanış ünvanlarda bir an dururuam -
Sən də yaddaşına ək, küçələri!..**

**Bu sahil, bu bulvar, bu da Təzəpir
Ruhumuz da birdi, cismimiz də bir!
Gətir qulağına söyləyim bir sirr -
Bölüb eyləmişəm lək, küçələri...**

**Nağıldı səninlə ötən anlarım
İçimdə nur kimi bitən anlarım...
Sənsiz yaşanmayan - itən anlarım,
Qəlbimə şırım tək çək, küçələri...**

**Susub boylanıram indi bəridə
Qatıb bir-birinə xeyir, şəri də!
Götür, as qəlbimi kiprik şəridə -
Edibdi özünə həkk, küçələri...**

**Ömrü yarma edib dərd kirkirəsi
Bəxtin dil bilməyən sərt kirkirəsi...
Məni də sevməyən bu Yer kürəsi -
Deyir avaralan, səkk küçələri...**

**... Bəli, bütün başlanğıclar hardasa bir sona gəlib çatır. Elə bütün yazılar da sonda bir nöqtəylə yekunlaşır. Bircə Tanrı yazısıdı ki, harda yekunlaşacağı, necə yekunlaşacağı məlum deyil. Hətta onun yekununda qoyulacaq işarəni də təxmin etmək mümkün deyil. Görünən, bilinən odur ki, yazı başlanır, yazılır və... Bax, mənim bu yazım da başlandı, yazıldı və indi də bitmək üzrədir. Təbii ki, bu an üçün... Onun davamı içimdə, ürəyimdə yazılır. Çünki yazı boyu dediyim sevgidi içimə, ürəyimə hakim. Və mən də o sevgiylə elə o sevgi üçün də yazıram!..**